DOI: https://doi.org/10.36719/2789-6919/32/138-141

Aynurə Hümmətli
Cəlilabad rayon Göytəpə şəhər
V.Mürsəlov adına 1 nömrəli tam orta məktəb
hummetli.a1984@gmail.com

SİNİF RƏHBƏRİNİN İŞİNİN PLANLAŞDIRILMASI

Xülasə

Gündən-günə yeniləşən cəmiyyətimizdə ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin səmərəli təşkili bu işə ayrı-ayrı siniflərdə necə diqqət yetirilməsindən çox asılıdır. Məhz bu mənada ən əsas ağırlıq sinif rəhbərinin üzərinə düşür, onların məsuliyyətini artırır.

Təlim-tərbiyə prosesinin səmərəli təşkili vəzifəsini ləyaqətlə yerinə yetirilməsi siniflərdəki şagirdlərin möhkəm kollektivdə birləşdirilməsindən başlanır. Ayrı-ayrı sinif kollektivlərinin inkişaf etməsi , təşəkkül tapıb formalası nəticəsində isə ümumi məktəbin şagird kollektivi formalaşır.

Lakin bütün bu proseslər bir günün, bir həftənin, bir ayın işi deyil, uzunmüddətli, mürəkkəbbir işdir. Sinif rəhbərindən gərgin səy, səbr, dözüm, soyuqqanlılıq, pedaqoji fəaliyyətə, tərbiyə işinə qəlbən bağlılıq, dərin maraq, gənc nəslə qayğı göstərmək tələb edir.

Müəllim təhkim olunduğu sinfə uğurla rəhbərlik edə bilməsi üçün onun bu istiqamətdə nəzəri hazırlığa malik olması vacibdir.

Açar sözlər: *təlim, tərbiyə, sinif rəhbəri, kollektiv və müəllim*

Aynura Hummatli
Jalilabad district Goytepe city
secondary school №1 named after V.Mursalov
hummetli.a1984@gmail.com

Planning the work of the homeroom

Abstract

In our society, which is changing day by day, the effective organization of the educational process in secondary schools is very dependent on how much attention is given to this work in individual classes. In this sense, the main responsibility depends on the homeroom and it increases their responsibility.

Fulfilling the task of effectively organizing the educational process with dignity begins with uniting the students in the classes in a strong team. As a result of the development and formation of separate class collectives, the student collective of the general school is formed.

But all these processes are not the work of a day, a week, a month, but a long-term complex work. The homeroom requires hard work, patience, endurance, composure, wholehearted commitment to pedagogical activities, educational work, deep interest, caring for the young generation.

It is important for the teacher to have theoretical training in this direction in order to be able to successfully lead the class to which he is assigned.

Keywords: *training, education, homeroom, collective and teacher*

Giriş

Sinif rəhbərinin işinin texnologiyaları içərisində əsas və birinci yerdə dayanan diaqnostlaşdırma texnologiyası. Belə ki, bu texnoloji proses icra edilmədən sinif rəhbəri görəcəyi işi düzgün planlaşdıra və icra edə bilməz. Diaqnostika – hər hansı mürəkkəb sistemin işinin öyrənilməsidir.

Sinif rəhbərinin işində diaqnostika nisbətən yeni istiqamətin pedaqoji diaqnostikanın bir hissəsidir. Müəllim diaqnostika metodikaların köməyi ilə pedaqoji prosesin vəziyyətinə , tədrisin və

ya tərbiyənin keyfiyyətinə, məktəblilərin öyrədilməsinə və tərbiyəsinə dair məlumatlar alır, bu məlumatlar üzərində işləyir, omları təhlil edir, onlara düzəlişlər edir və pedaqoji prosesin və şagirdlərin inkişafını proqnozlaşdırır. Diaqnostika nəzəri və tətbiqi səviyyədə bu problemləri həll edir: nəyi və hansı metodlarla öyrənməli , pedaqoji prosesin vəziyyətini, şagirdlərin hazırlıq dərəcələrini necə ölçməli, nəticələri necə təhlil etmək aydınlaşdırmaq və onlardan necə istifadə etməli.

Sinif rəhbəri müəllimlərlə, şagirdlərə və valideynlərlə birgə fəaliyyətdə sistemlilik, dəqiqlik, optimallıq, dialoq, fərdilik, elmilik, fasiləsizlik prinsiplərə söykənərək təqvim planını tərtib edir. Tərbiyə işinin təqvim planı həftəlik və ya aylıq zaman kəsiyini əhatə edir və planlaşdırılmış işlərin adları, onların keçirilmə tarixi və müddəti, tədbir təşkilatçılarının soyadları haqqındakı informasiyanı özündə cəmləşdirir. Belə plan sinif rəhbərinin iş planı adlanır.

Sinif rəhbərinin görəcəyi işlərin və ya vəzifələrinin əsas özəyini sinif kollektivinin həyat fəaliyyətinin təşkili, o cümlədən sinif kollektivində təhsil və şəxsiyyətin inkişafı üçün əlverişli şəraitin yaradılması problemi təşkil edir. Sinif kollektivinin həyat fəaliyyətinin əsas istiqamətindən biri sinif rəhbərinin şagirdlərin tədris fəaliyyətinə düzgün rəhbərliyidir.

Respublikamızda həyata keçirilən təhsil islahatlarının məqsədi təlim prosesinin səmərəliliyini təmin etməklə milli və ümumbəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran fəal şəxsiyyət yetişdirməkdir.

Təlimdə keyfiyyətin əldə olunması üçün psixoloji xüsusiyyətləri dərindən bilmək vacibdir. Bu günün müəllimi öz işini yeni müstəvidə qurmalı, şagirdlərlə , valideyinlərlə, həmkarları ilə yeni tərzdə qarşılıqlı fəaliyyətdə olmalı, dərsləri yeni üslubda təşkil etməli, müasir elm və texnikanın nailiyyətlərindən tam şəkildə bəhrələnməyi bacarmalıdır. Müəllim bütün hallarda, xüsusən "müəllim-şagird" münasibətlərinin qurulmasında pedaqoji taktı-nəzakəti, onun davranışına verilən etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə düzgün davranmalıdır (Kurikulum, 2015: 52).

Tərbiyəçi-müəllimin göstərdiyi nümunə kimi şagirdə təsir edən ikinci bir güclü metod yoxdur. Heç də təsadüfi deyilməmişdir ki, "Təlimdə əyaniliyin rolu nədirsə, tərbiyədə nümunə o deməkdir" K.D.Uşinski yazırdı: "Tərbiyəçinin cavan ruha təsiri elə bir tərbiyə qüvvəsidirki, heç bir dərslik, heç bir əxlaqi nəsihət, heç bir cəza və rəğbətləndirmə onu əvəz edə bilməz" (Uşinski, 1953).

Məktəb rəhbəri ilə müəllim kollektivi arasında, rəhbərlə şagirdlər arasında, şagird ilə şagird arasında, müəllimlə şagirdlər arasında pedaqoji ünsiyyət bu məfhuma aiddir. Müəllim-şagird ünsiyyəti həlledici əhəmiyyət kəsb edir.

Şagird və müəllim arasında pedaqoji ünsiyyətin necəliyi tədris müəssisəsində təlim-tərbiyəişinin səviyyəsinə bu və ya digər dərəcədə təsir göstərir (Kazımov, 2006: 197).

Sinif rəhbəri şagirdlərarasında müxtəlif tərbiyəvi işlər aparırlar.

Sinif rəhbəri, adətən sinifdə dərs aparan nümunəvi əxlaqi, təşkilatçılıq bacarığına malik, tərbiyə işinin metodikasına bələd olan, öz ixtisasına dərindən yiyələnən, uşaqları sevən fənn müəllimlərindən biri olur. Deməli o, bir tərəfdən fənn müəllimi, digər tərəfdən tərbiyəçi, rəhbər funksiyasını öz üzərinə götürür. Sinif rəhbəri ailə ilə maktəb arasında körpü yaradır, uşaqların tərbiyəsində valideynlərin məsuliyyətini artırır, pedaqoji maariflənməsi qayğısına qalır, şagirdllərlə aparılacaq işləri, tərbiyə işlərini planlaşdırır, hər bir şagirdi diqqətlə öyrənir. Onların fərdi xüsusiyyətlərinə bələd olur. Məktəblilərin öyrənilməsi ona görə vacibdir ki, onların hər birinə fərdi yanaşa bilsin , çətinliklərini, bacaran və qabiliyyətlərini, maraq və meyllərini üzə çıxarsın (Abbasov, Əlizadə, 2000: 60).

Sinif rəhbəri xüsusi hazırlıq keçmiş və pedaqoji fəaliyyətlə peşəkarcasına məşğul olan insandır. Yalnız o, pedaqoji biliklərə müvafiq olaraq hərəkət etməyi bacarır, öz peşə borcunu keyfiyyətlə icra etmək üçün müəyyən olunmuş qaydada məsuliyyət daşıyır (Paşayev, Rustəmov, 2007: 39).

Sinif rəhbəri hər bir məktəblini yaxşı öyrəndikdə, onların qüvvətli və zəif tərəflərinə bələd olduqda öz fəaliyyətini bu istiqamətdə qurur, nəticədə müəllim-şagird, uşaq-valideyn münasibətləri faydalı məcraya yönəlir, qarşılıqlı ünsiyyət asanlaşır. Məktəblilərin sinif rəhbərinə inamı, etibarı artır onun hörmət və nüfuzunu gözləyirlər. Belə olan təqdirdə, şagirdlər sinif rəhbərini özlərinə

doğma, yaın adam sayır, onunla məsləhətləşməkdən, onları narahat edən məsələlərdən söz açmaqdan çəkinmir, dərd-sərlərini onunla bölüşürlər.

Fənn müəllimləri, məktəb ictimai təşkilatları, pedaqoji kollektivin digər üzvləri, başqa sinif şagirdləri ilə rəhbərlik etdiyi sinfin şagirdləri arasında anlaşılmazlıq yarandıqda sinif rəhbəri köməyə gəlir. Hər bir məktəbliyə yaxından bələd olduğuna görə, sinif rəhbəri konkret şagirdlə münasibətləri səmərəli qurmaq üçün fənn müəllimlərinə məsləhət verir.

Sinif rəhbərinin işi səciyyəvi xüsusiyyətlərə malikdir. Həmin xüsusiyyətlər aşağıdakılardır:

1.Bir neçə il ərzində eyni tərkibli sinifdə fəaliyyət göstərmək.

2.Yetirmələri ilə gündəlik görüşmək imkanına malik olmaq. Bu istər-istəməz şagirdlərin qayğıları ilə yaşamağa sinif rəhbərini məcbur edir.

3.Məktəblilərin ata-anaları ilə daimi ünsiyyət imkanına malik olur.

4.Pedaqoji kollektivin digər üzvlərindən fərqli olaraq, sinif rəhbərinin konkret sinifdəki fəaliyyətini mürəkkəb, məsuliyyətli, çətin , eyni zamanda şərəfli bir iş olması.

5.Sinifdəki şagirdlərin təlim müvəffəqiyyətinə, tərbiyəlilik səviyyəsinə, intizamına, dərsə davamiyyətinə görə bilavasitə sinif rəhbərinin məsuliyyət daşıması.

6.Sinif şagird kollektivini səmərəli təşkil etmək, məktəblilər arsında qarşılıqlı münasibətləri düzgün təşkil etmək sahəsində sinif rəhbəri cavabdehlik daşıyır.

7.Şagirdlərin asudə vaxtının və istirahətinin səmərəli təşkili istiqamətində məsuliyyət daşıyır.

Sinif rəhbəri təhkim olunduğu sinifdə təlim-tərbiyə işlərini yüksək səviyyədə qurmaq üçün sinif şagird kollektivini düzgün formalaşdırmağı bacarmalıdır. Bu sahədə onun qarşısında duran vəzifələr aşağıdakılardır:

1.Sinif şagird kollektivini təşkil etməlidir.

2.Ayrı-ayrı məktəbliləri öyrənməklə ictimai işə maraq göstərən, təşkilatçılıq qabiliyyətinə malik şagirdlər üzərində müəyyən təsiri olan uşaqlar müəyyənləşdirilməlidir.

3.Sinfin tərbiyəlilik və təlim müvəffəqiyyətinin səviyyəsini aşkara çıxarmalıdır.

Kollektiv müsbət sosial təcrübənin şagirdlərə çatdırılmasının əsas bazası rolunu yerinə yetirir.

A.S.Makarenko kollektivə belə tərif verir: “Kollektiv – canlı ictimai orqanizdir, ona görə orqanizmdir ki, onun orqanları vardır, burada vəkalət, məsuliyyət, hisslər arasında nisbət, qarşılıqlı asılılıq vardır, bunlar olmazsa, kollektivdə ola bilməz” (Makarenko, 1948).

Kollektivin ümumi məqsədinin yerinə yetirilməsi sahəsindəki başlıca vəzifələr hər bir üzvün fəaliyyətinin əsasında durmalıdır.

Kollektivdə yaranan münasibətlərdə məktəbli həm obyekt, həm də subyekt kimi çıxış edir. Bu və ya digər şagirdin kollektivdə oynadığı rol tez-tez dəyişir. Şagird kollektivi bir sistem kimi daha mürəkkəb birlik olan uşaq və müəllim kollektivini birləşdirən tərbiyəvi kollektivin üzvü hissəsidir (Pedaqogika, 1964).

Sinif şagird kollektivi məktəbli şəxsiyyətinin formalaşmasına güclü təsir göstərir. Bu kollektivi digər kollektivlərlə müqaisə etməli olsaq, şagird kollektivində sinif rəhbəri formalaşmış şəxsiyyətlərin deyil, təşəkkül tapmaqda olan məktəblilərdən ibarətdir.

1.İctimai faydalı funksiyaya malik olması.

2.Kollektivin tərbiyəvi funksiya daşıması.

Məktəblilər bir tərəfdən ictimai fəaliyyətlə məşğul olur, sinfin, məktəbin, kollektiv üzvlərinin mənafeyi naminə iş görür, digər tərəfdən fəaliyyət və kollektivlə qarşılıqlı münasibətlər zəminində tərbiyə olnurlar.

Nəticə

Tədqiqatçılıq qabliyyətinə malik olan şagirdlərin üzə çıxarılmasında sinif rəhbəri işinin düzgün planlaşdırılmasının rolu böyükdür. Belə təşkil olunan iş prosesində kollektivin fəalları müəllimin tələblərii nəinki müdafiə edir, həm də özləri kollektivin üzvləri qarşısında tələblər qoyurlar. Əgər fəallar kollektivin tələbatlarınıdüzgün başa düşürsə, onlar müəllimin etibarli köməkçisi olurlar. Bu mənada fəallarla işi gücləndirmək müəllimdən xüsusi diqqət tələb edir (Pedaqogika, 1993).

Sinif rəhbəri şagird kollektivinin təşkili və tərbiyəsi zamanı şagirdin kollektivdə fəal şəxsiyyət

kimi yetişməsi problemini diqqət mərkəzində saxlamalıdır. Çünki müasir dövr şagirdin həyati bacarıqlara yiyələnməsini ön plana çəkir.

Fikrimizcə, bütünlükdə məktəbin qarşısında duran şagird şəxsiyyətinin formalaşdırılması probleminin yerinə yetirilməsində sinif rəhbəri öz işini düzgün planlaşdırılmasına təsir göstərən amilləri nəzərə alması həyati zərurətdir.

Ədəbiyyat

1. Abbasov, A., Əlizadə, H. (2000). Pedaqogika. Bakı.
2. Makarenko, A.S. (1948). Tərbiyə işləri haqqında məqalələr. Bakı.
3. Paşayev, Ə., Rüstəmov, F. (2007). Pedaqogika. Bakı.
4. Uşinski, K.D. (1953). Seçilmiş pedaqoji əsərlər. Bakı.
5. Kurikulum. (2015). Elmi Metodik Jurnal.Cild-8 N:3.
6. Kazımov, N. (2006). Ali məktəb pedaqogikası. Bakı.
7. Pedaqogika, (1964). Bakı. Azərtədrisnəşr.
8. Pedaqogika, (1993). Bakı. Maarif.

Göndərildi: 04.03.2024 Qəbul edildi: 19.04.2024